Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.

Heydər Əliyev.

GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 19-20 (9203-9204) | 27 oktyabr 2015-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

Dövlət başçısı iclası giriş nitqi ilə açıb.

Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

- Nazirlər Kabinetinin bugünkü iclasında biz ilin 9 ayının sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, bu il Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Bu, özlüyündə böyük göstəricidir. Çünki dünyada və bölgədə gedən proseslər göz qabağındadır. Həm bölgədə, həm Avropada böhran yaşanır, iqtisadi, hərbi, siyasi böhran. Belə şəraitdə iqtisadi inkişafa nail olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Bunun bir səbəbi var. O da ondan ibarətdir ki, Azərbaycanda düşünülmüş, müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq.

Azərbaycanda sabitlik təmin edilir. Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib - Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək.

Əlbəttə, müstəqil siyasət aparmağımız bizə bəzi problemlər də yaradır. Çünki bu gün dünyada qütbləşmə göz qabağındadır, bu proses gedir. Böyük ölkələr öz təsir dairələrini genişləndirmək istəyirlər və görəndə ki, dünyada müstəqil, öz sözünü deyən, heç kimdən çəkinməyən, prinsipial ölkə var, əlbəttə, bu, onları qıcıqlandırır. Ancaq bu, bizi narahat etməməlidir. Bu məsələlərə, ümumiyyətlə, mən fikir vermirəm. Çünki mənim üçün əsas məsələ ölkəmizin təhlükəsizliyi, inkişafı və sabitliyidir. Ona görə Azərbaycan bundan sonra da müstəqillik yolu ilə gedəcək.

Bu gün dünyada artıq Azərbaycanın inkişaf modeli haqqında danışılır, qeyd edilir. Həm siyasi sahədə, beynəlxalq münasibətlərin tənzimlənməsində, ölkədaxili proseslərin inkişafında, multikulturalizmlə bağlı bizim təcrübəmiz öyrənilir. Həm də hesab edirəm ki, iqtisadi inkişaf modelimiz də bu gün bir çox ölkələr üçün cəlbedici ola bilər. Çünki biz şaxələndirmə yolu ilə gedirik. Ölkə iqtisadiyyatı artıq çoxşaxəli iqtisadiyyatdır. Qeyri-neft sektoru ümumi daxili məhsulun təxminən 70 faizini təşkil edir.

Biz son illər ərzində aparılan islahatlar nəticəsində bu səviyyəyə qalxa bilmişik. Müstəqillik, müstəqil siyasət, milli maraqlar bizim üçün əsas vəzifədir, əsas məsələdir. Biz bundan sonra da Azərbaycanın seçimini qoruyacağıq, bütün təzyiqlərə, bəzi hallarda təxribatlara baxmayaraq, öz yolumuzdan dönməyəcəyik. Sosial-iqtisadi göstəricilərimiz də bir daha təsdiq və sübut edir ki, biz düzgün yoldayıq.

Doqquz ayda Azərbaycan iqtisadiyyatı 3,7 faiz artmışdır. Nəzərə alsaq ki, biz bunu qeyri-neft sektorunun hesabına əldə etmişik, bu, çox böyük göstəricidir. Ümumiyyətlə, bu gün bölgədə gedən proseslər, qanlı toqquşmalar, iqtisadi tənəzzül, əlbəttə ki, istər-istəməz bizim iqtisadi inkişafımıza da mənfi təsir göstərir. Ondan əlavə, ilin əvvəlindən neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi - 100 dollardan 50 dollara, ondan da aşağı səviyyəyə düşməsi, əlbəttə ki, bizim gəlirlərimizə mənfi təsir göstərmişdir. Ancaq buna baxmayaraq, aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı inkişaf edir. Hesab edirəm ki, indiki şəraitdə 3,7 faiz ən gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft iqtisadiyyatımız 6 faizdən çox artmışdır və bu da dediyim kimi, aparılan islahatların nəticəsidir.

Sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi isə 10 faizdən çox artmışdır. Bu da çox müsbət göstəricidir və onu göstərir ki, Azərbaycanda sənayeləşmə siyasəti uğurla icra edilir. Bu il "Kənd təsərrüfatı ili" elan edilib. Şadam ki, "Kənd təsərrüfatı ili"ndə kənd təsərrüfatımız da 6,7 faiz artmışdır. Azərbaycanda inflyasiya 9 ayda çox aşağı səviyyədədir - 3,7 faiz. Əhalinin pul gəlirləri isə 5,8 faiz artıb. Beləliklə, hər il olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Bu da o deməkdir ki, əhalinin real gəlirləri ildən-ilə artır. Baxmayaraq ki, yenə də demək istəyirəm, bu il həm ölkə, həm bölgə üçün ağır il olaraq qalır.

Ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulub. Onlardan 9 milyardı daxili, 7 milyardı xarici sərmayədir. Bu da çox gözəl göstəricidir. Çünki bu gün dünyada maliyyə və likvidlik qıtlığı yaşanır. Bir çox ölkələr öz ölkələrinə daha çox investisiyalar cəlb etmək üçün çalışırlar və o cümlədən Azərbaycan. Biz də əsas vəsaitimizi ölkəmizə qoyuruq. Eyni zamanda, xarici investorlar üçün də Azərbaycan cəlbedici ölkə kimi tanınır. Biz çalışmalıyıq ki, investisiya iqlimini daha da yaxşılaşdıraq və bu sahədə əlavə tədbirlər görüləcəkdir.

Bu il sosial sahədə bir çox uğurlu layihələr icra edilmişdir. Qeyd etməliyəm ki, sosial infrastrukturun yaradılması prosesi gedir. Baxmayaraq, xərclərimiz təbii ki, azalır, ancaq biz sosial infrastrukturun yaradılmasına bu il də kifayət qədər böyük vəsait ayırmışıq. Bu vəsait hesabına 9 ayda ölkədə 34 məktəb, 26 uşaq bağçası, 11 tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Bu da bizim niyyətimizi, siyasətimizi göstərir. Çünki dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Buna görə sosial sahə gələn il də prioritet sahə kimi diqqət mərkəzində olacaqdır.

Hesab edirəm ki, ünvanlı sosial yardım sahəsində də çox müsbət dəyişikliklər baş vermişdir. Şəffaflıq təmin edilir. Görülən tədbirlər, islahatlar nəticəsində bu sahə insanları daha az narahat edir. Çünki hamımız yaxşı bilirik ki, əvvəlki illərdə bu sahə ilə bağlı çoxsaylı şikayətlər daxil olurdu. Artıq yaradılan yeni sistem - şəffaflıq və sosial ədalət bu narazılığın böyük hissəsini aradan qaldırıb.

Onu da qeyd etməliyəm ki, şəffaflıq nəticəsində ünvanlı sosial yardım alanların sayı 16 faiz aşağı düşmüşdür. Çünki heç bir kriteriyaya görə ünvanlı sosial yardım düşməyənlər artıq bunu almırlar. Ancaq doğrudan da, ehtiyac içində yaşayanlar bunu alır və onlara daha böyük məbləğ verilir. Bu gün 500 minə yaxın insan, 114 min ailə ünvanlı sosial yardım alır və hər ailəyə orta hesabla hər ay 153 manat dövlət tərəfindən yardım göstərilir. Bu, çox yaxşı nəticədir və əminəm ki, gələcək illərdə yoxsulluğun aşağı düşməsi nəticəsində ünvanlı sosial yardıma möhtac olanların sayı daha da azalacaq. Yoxsulluq Azərbaycanda aşağı səviyyədədir - 5 faiz səviyyəsindədir. Ümumiyyətlə, olmamalıdır və əminəm ki, biz gələcək illərdə buna daha da yaxınlaşacağıq.

İnfrastruktur sektorunda, infrastruktur layihələrinin icrasında da bu il kifayət qədər böyük işlər görülüb. Təbii ki, bizim gəlirlərimiz neftin qiymətinin aşağı düşməsi nəticəsində azaldığına görə xərclərimiz də azalıb. Biz öz fəaliyyətimizi ancaq daxili resurslar hesabına qururuq. Biz xarici borclanmaya meyilli deyilik. Onsuz da manatın devalvasiyasından sonra bizim xarici borcumuz artıb. Çünki xarici dövlət borcu dollarla hesablanır və əgər devalvasiyaya qədər xarici dövlət borcumuz təxminən 7-8 faiz təşkil edirdisə, bu gün xarici borc 11-12 faizə qalxıb. Ona görə yox ki, biz əlavə kreditlər götürmüşük. Ona görə ki, manat qiymətdən düşüb. On iki faiz də çox gözəl göstəricidir. İnkişaf etmiş ölkələrin bəzilərində bu, 100 faizdən çoxdur. Ancaq biz istəyirik ki, xarici borcumuz 10 faizi keçməsin. Buna nail olmaq üçün biz gələcəkdə də öz fəaliyyətimizi ancaq daxili imkanlar hesabına qurmalıyıq. Ona görə biz qazandığımıza müvafiq olaraq xərcləri nəzərdə tutmalıyıq. Ona görə infrastruktur layihələrinin icrasında imkan daxilində işlər görülüb. Kənd yolları, içməli su, kanalizasiya layihələri, qazlaşdırma ilə bağlı layihələr - bütün bunlar bu il də icra edilib və mənim bölgələrə mütəmadi səfərlərim imkan verir ki, bu gözəl dəyişiklikləri, inkişafı öz gözümlə görüm.

Bu il 87 min yeni iş yeri yaradılmışdır ki, onlardan 67 mini daimi iş yeridir. Bu da gözəl göstəricidir. İş yerlərinin yaradılması prosesi daim aparılmalıdır. Mən bunu dəfələrlə demişəm və biz iqtisadi inkişaf modelimizi buna uyğun şəkildə qurmalıyıq. Çünki Azərbaycanda iqtisadi inkişaf, sabitlik, xalqın rifahının artması nəticəsində çox müsbət demoqrafik vəziyyət yaranmışdır. Hər il yüz mindən çox insan doğulur və belə olan halda əlbəttə ki, gələcəkdə biz yeni iş yerlərinin yaradılması üçün əlavə tədbirlər görməliyik. Ona görə bu sahədə də yeni inkişaf strategiyamız müəyyən edilməlidir. Əminəm ki, belə də olacaq.

Regionlarda yaradılan iş yerləri, əlbəttə ki, ölkə iqtisadiyyatının çoxşaxəli inkişafına xidmət göstərir. Ancaq onu da qeyd etməliyəm ki, 9 ayda baxmayaraq, 67 min daimi iş yeri yaradılıb, 30 minə yaxın iş yeri bağlanıb. Bu da reallıqdır. Biz bu reallığı bilməliyik və burada ciddi təhlil aparılmalıdır ki, bu prosesin səbəbləri nədən ibarətdir. Əslində bu, təbii bir prosesdir. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da yeni iş yerləri açılır və bağlanır. Həmişə bizdə müsbət saldo müşahidə olunub, bu gün də belədir. Hətta böhranlı ildə 67 min daimi iş yerinin açılması böyük nəticədir. Yəni, əgər bağlanan iş yerlərini çıxsaq, 40 minə yaxın yeni iş yeri yaradılıb. Ancaq bununla bərabər, biz bağlanan bu iş yerlərinin təhlilini aparmalıyıq və bilməliyik ki, bu proseslər hansı səbəblər üzündən baş verir. Obyektiv səbəblər də, subyektiv səbəblər də ola bilər. Biz bu gün bu barədə danışacağıq.

Ölkə iqtisadiyyatı üçün çox böyük əhəmiyyət kəsb edən nəqliyyat sektorudur. Bildiyiniz kimi, son illər ərzində bu sektora bəlkə də bütün infrastruktur layihələri arasında ən böyük vəsait ayrılmışdır. Çünki bizim coğrafi vəziyyətimiz diktə edir ki, burada - həm ölkə daxilində müasir nəqliyyat infrastrukturu yaradılmalı, həm də tranzit imkanlarımız genişlənməli, bizə daha da böyük həcmdə siyasi və iqtisadi dividentlər gətirməlidir.

"Cənub" qaz dəhlizinin yaradılması ilə bağlı 9 ayda çox gözəl, önəmli işlər görülmüş, addımlar atılmışdır. Bildiyiniz kimi, "Cənub" qaz dəhlizi ölkəmizin təşəbbüsü idi və artıq həm "Şahdəniz-2" yatağının işlənməsi, həm TANAP layihəsinin icrası istiqamətində ciddi praktiki addımlar atılır. Biz çalışırıq və çalışacağıq ki, bu layihə vaxtında icra edilsin. Biz çalışmalıyıq ki, layihənin önəmli hissəsi olan TANAP, - Azərbaycan əsas səhmdardır və bütün məsuliyyət də bizim üzərimizdədir, - vaxtında - 2018-ci ildə istifadəyə verilsin.

Digər layihələrdə - "Şahdəniz-2" və TAP layihələrində Azərbaycan əlbəttə ki, səhmdardır, ancaq biz əsas səhmdar deyilik. Ona görə əsas operator məsuliyyəti başqa qurumların üzərinə düşür. O ki qaldı TANAP layihəsinə, Azərbaycan orada əsas sahibkardır. Ona görə bizim məsuliyyətimizdə olan bu layihə əminəm ki, vaxtında icra ediləcək.

Daim diqqət mərkəzində olan sahə ordu quruculuğudur. Biz bu sahəyə daim böyük diqqət göstəririk. Bu da təbiidir, çünki Azərbaycan müharibə şəraitində yaşayır, müharibə bitməyib və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil. Bunu artıq hamı görür, o cümlədən bu məsələ ilə məşğul olan vasitəçilər.

Ordu quruculuğu gələn il də prioritet sahə olaraq qalacaq. Bu sahəyə nə qədər lazımdırsa vəsait ayrılacaq. İndi həm yeni texnikanın, silahsursatın alınması, istehsalı prosesi gedir, eyni zamanda, hərbi hissələr üçün ən yüksək səviyyədə şəhərciklər, hərbi bazalar tikilir. Bu il Hərbi Dəniz Qüvvələrinin böyük bazası istifadəyə verilmişdir. Təmas xəttinə yaxın olan bölgələrdə yeni infrastruktur yaradılır və bizim döyüş qabiliyyətimiz artır. Təmas xəttindəki vəziyyət Azərbaycan ictimaiyyəti üçün sirr deyil. Biz tam üstünlüyü əldə etmişik, düşmənə sarsıdıcı zərbələr vururuq, düşmənin bütün təxribatlarına layiqli cavabımızı veririk.

Keçən ay düşmənin növbəti təxribatının qarşısı alındı. Bizə qarşı böyük təxribat hazırlanırdı, çoxsaylı diversantlar artıq təşkil olunmuş və səfərbər edilmişdi ki, Azərbaycanın mövqelərinə hücum çəksinlər. Bizim ordumuz o təxribatın qarşısını aldı. Preventiv zərbə vurmaqla düşmənə çox böyük ziyan yetirdi və bir çox işğalçılar məhv edildi. Əlbəttə ki, Ermənistan tərəfi dərhal həmişə olduğu kimi, hay-haray qaldırdı. Ancaq burada təbii sual yaranır, işğalçılar hansı ərazidə həlak oldular? Ermənistandamı? Xeyr, bizim torpağımızda. İşğal edilmiş torpaqlarda. Sual olunur, onların orada nə işi var? Özü də orada ölənlərin mütləq əksəriyyəti Ermənistan vətəndaşlarıdır, heç Dağlıq Qarabağ sakinləri deyil. Yəni, Ermənistan ordusu bizim torpaqlarımızda işğalçılıq siyasəti aparır. Bu, gün kimi aydın bir məsələdir. Əfsuslar olsun ki, bunu beynəlxalq ictimaiyyət, vasitəçilər görmək istəmirlər və işğalçıya ciddi siqnallar göndərilmir. Ona görə onlar azğınlaşıblar və bizə qarşı müxtəlif təxribatlara əl atırlar. Ancaq hər dəfə onların təxribatları iflasa uğrayır. Necə ki keçən ilin noyabrında bizim mövqelərimizə hücum edən helikopter məhv edildi. Bu ilin sentyabr ayında böyük itkilər verdilər və hər dəfə biz onların cəzasını verəcəyik.

Biz ölkəmizin ərazi bütövlüyünü bərpa etməliyik və edəcəyik. Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən əhəmiyyətsiz deyil. Məsələ beynəlxalq hüquq çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və tapacaq. Biz isə iqtisadiyyatımızı gücləndiririk, ordumuzu gücləndiririk və istənilən vaxtda lazımi tədbirləri də görəcəyik.

Erməni diktatoru hətta Ermənistanın rəsmi mövqeyinə tamamilə zidd olan bəyanatlar verir. Bəyan edir ki, Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir. Birincisi, Dağlıq Qarabağ Azərbaycanın tarixi, əzəli torpağıdır və beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın ayrılmaz hissəsidir. Bunu bütün dünya ictimaiyyəti, BMT belə qəbul edir və heç bir ölkə Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi qəbul etmir, müstəqil qurum kimi də qəbul etmir və qəbul etməyəcək. Ona görə, bu, çox qəribə, yumşaq desək, qeyri-adekvat və görünür ki, çox gərgin psixoloji durumda verilən bəyanat həm Ermənistanı işğalçı ölkə kimi ifşa edir, həm də rəhbərliyini biabır edir. Çünki indi hər bir insan danışdığının məsuliyyətini daşımalıdır, xüsusilə böyük vəzifə sahibləri. Ancaq xunta rejimindən bundan artığını gözləmək də çətindir. Çünki Ermənistanın bugünkü hakimiyyəti hərbi canilərdir, Xocalı soyqırımını törədənlərdir. Azərbaycan torpaqlarının işğalında dinc əhaliyə qarşı aparılan etnik təmizləmə siyasətində fəal iştirak edənlərdir. Onlardan bundan artığını gözləmək mümkün deyil. Ancaq o da həqiqətdir ki, bu gün Ermənistanda hökm sürən xunta və diktatura rejimi Ermənistan xalqı üçün də təhlükəyə çevrilib. Ermənistan xalqı da artıq buna dözə bilmir, bu kriminal, korrupsioner rejimdən bezib. Ermənistandan köç gedir. Vəziyyət o həddə çatıb ki, onlar indi Azərbaycana pənah gətirirlər, Azərbaycana gəlirlər. Görün bu rejim nə dərəcədə azğınlaşıb, əhaliyə qarşı nə qədər çirkin əməllər görür ki, hətta bu gün Azərbaycana Ermənistandan insanlar köçür və burada rahat yaşayır. Çünki Azərbaycanda nəinki milli, dini zəmində heç bir qarşıdurma, heç bir anlaşılmazlıq da ola bilməz.

Azərbaycan bu gün güclü ölkədir, iqtisadi və siyasi sahədə böyük uğurlara imza atıbdır. Regional təhlükəsizlik məsələlərində Azərbaycan çox müsbət rol oynayır. Azərbaycan sabitləşdirici amildir. Bizim iştirakımız, razılığımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. İqtisadi və hərbi potensialımız bizim gücümüzü daha da artırır və biz bu gün təmas xəttində vəziyyətə nəzarət edirik. Getdikcə bizim gücümüz artacaq, Ermənistan daha da zəifləyəcək. Çünki inkişaf üçün Ermənistanda heç bir imkan yoxdur. Heç bir obyektiv amil yoxdur ki, Ermənistan bu diktatura rejimi altında inkişaf etsin.

Biz isə öz yolumuzla gedəcəyik. Biz ilin sonuna qədər bütün vəzifələri icra edəcəyik. Gələn ili də əminəm ki, uğurla başa vuracağıq.

* * *

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, səhiyyə naziri Oqtay Şirəliyev, təhsil naziri Mikayıl Cabbarov iclasda çıxış etdilər.

* * *

Dövlət başçısı iclasda yekun nitqi söylədi.

HESABAT YIĞINCAĞI KEÇİRİLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabr ayının 12-də Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

Bununla əlaqədar Qazax rayonunda hesabat yığıncağı olmuşdur.

İcra Hakimiyyətində keçirilən hesabat yığıncağında idarə və müəssisə rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov iclası giriş sözü ilə açaraq tədbirin gündəliyi barədə yığıncaq iştirakçılarına məlumat vermişdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş məruzə ilə çıxış etmişdir. Qeyd etmişdir ki, hesabat dövründə respublikamızda möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında genişmiqyaslı işlər görülmüşdür. Respublikamızda gedən dinamik inkişaf strategiyası Qazax rayonunda da davam etdirilmiş və 2015-ci ilin 9 ayında demək olar ki, bütün sahələr üzrə uğurlu göstəricilər qazanılmışdır. Hesabat dövründə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində yaddaqalan tədbirlər həyata keçirilmiş, əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təmin olunması sahəsində mühüm işlər aparılmışdır. Rayonda "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa və quruculuq işləri 2015-ci ilin 9 ayında da uğurla həyata keçirilmişdir.

Hesabat yığıncağında rayon Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, Şəmkir RQİİ-nin Qazax XS üzrə rəis müavini İlkin Nəsibov, Qazax rayon EŞ-nin rəisi Elşad Məmmədov və başqaları çıxış edərək rəhbərlik etdikləri idarə və müəssisələrdə hesabat dövründə görülən işlərdən söz açmışlar.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov hesabat yığıncağına yekun vuraraq qarşıda duran vəzifələrdən, həyata keçiriləcək işlərdən danışmışdır.

"GÖYƏZƏN"

2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərovun

HESABAT MƏRUZƏSİ

Bildiyiniz kimi, 12 oktyabr 2015-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclasda Ölkə Prezidenti geniş nitq söyləmişdir. Bildirilmişdir ki, ilin 9 ayının sosial-iqtisadi yekunları göstərir ki, Azərbaycan iqtisadiyyatı bu müddət ərzində də uğurla inkişaf etmişdir. Doqquz ayda Azərbaycan iqtisadiyyatı 3,7 faiz artmışdır. Nəzərə alsaq ki, bu qeyri-neft sektorunun hesabına əldə olunub, bu, çox böyük göstəricidir. Aparılan uğurlu islahatların nəticəsində qeyri-neft iqtisadiyyatımız 6 faizdən çox artmışdır. Sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi isə 10 faizdən çox artmışdır. Bu, Azərbaycanda sənayeləşmə siyasətinin uğurla həyata keçirilməsinin təzahürüdür. Bu il kənd təsərrüfatımız da 6,7 faiz artmışdır. Buna ölkədə aparılan islahatlar, dövlət tərəfindən fermerlərə verilən subsidiyalar, texnika təminatı və bütövlükdə, aparılan düzgün dövlət siyasətinin nəticəsində nail olunmuşdur. Bu da öz növbəsində iri fermer təsərrüfatlarının yaradılmasına, xüsusilə, taxılçılıq sahəsində böyük dönüşə səbəb olmuşdur. Azərbaycanda infilyasiya 9 ayda çox aşağı səviyyədə-3,7 faiz olmuşdur. Əhalinin pul gəlirləri isə 5,8 faiz artmışdır. Beləliklə, hər il olduğu kimi, əhalinin gəlirləri infilyasiyanı üstələmişdir. Bu da o deməkdir ki, əhalinin real gəlirləri ildən-ilə artır. Ölkə iqtisadiyyatına 16 milyard dollar sərmayə qoyulub. Onlardan 9 milyardı daxili, 7 milyardı xarici sərmayədir.

Bu il sosial sahədə bir çox uğurlu layihələr icra edilmişdir. Bir sıra sosial infrastrukturun yaradılmasına bu il də kifayət qədər böyük vəsait ayrılmışdır. Bu vəsait hesabına 9 ayda ölkədə 34 məktəb, 26 uşaq bağçası, 11 tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilmişdir. Sosial sahə gələn il də prioritet sahə kimi diqqət mərkəzində olacaqdır. Bu gün 500 minə yaxın insan, 114 min ailə ünvanlı sosial yardım alır və hər ailəyə orta hesabla hər ay 153 manat dövlət tərəfindən yardım göstərilir. Bu il 87 min yeni iş yeri yaradılmışdır ki, onlardan 67 mini daimi iş yeridir.

Ordu quruculuğuna gələn il də nə qədər lazımdırsa vəsait ayrılacaq. Cari ildə Hərbi Dəniz Qüvvələrinin böyük bazası istifadəyə verilmiş, təmas xəttinə yaxın olan bölgələrdə yeni infrastruktur yaradılmış və bütün bunlar ordumuzun döyüş qabiliyyətini artırır. Təmas xəttində tam üstünlük əldə edilmiş və düşmənə sarsıdıcı zərbələr vurulur. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və torpaqlarımızı erməni işğalından azad etmək üçün iqtisadiyyatımız və ordumuz gücləndirilir. Mən əminəm ki, görülən məqsədyönlü tədbirlər çox tezliklə öz nəticəsini verəcək və işğalda olan torpaqlarımız azad ediləcəkdir.

2015-ci ilin 9 ayı rayonumuz üçün də uğurlu olmuşdur.

Qazax rayonu üzrə 2015-ci ilin yerli gəlir və xərclərinin proqnozu 21.019.000 manat məbləğində müəyyənləşdirilmişdir. Büdcənin mədaxil hissəsinin 6.716.000 manatını yerli daxilolmalar, 14.303.000 manatını isə mərkəzləşdirilmiş xərclərdən alınacaq dotasiya təşkil etmişdir. Mədaxil hissədə yerli daxilolmalar 32,0 faiz, dotasiya isə 68,0 faiz olmuşdur.

2015-ci ilin 9 ayında yerli daxilolmalar 4.828.804 manat proqnoza qarşı 5.027.673 manat və ya 104,1 faiz yerinə yetirilərək büdcəyə 198.869 manat çox vəsait mədaxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə büdcəyə 1.002.748 manat çox vəsait daxil olmuşdur. Mərkəzləşdirilmiş xərclərdən alınası dotasiya 10.800.924 manat proqnoza qarşı 9.600.924 manat icra olunmuşdur.

2015-ci ilin 9 ayında yerli xərclər 2.303.917 manat az icra olunmuş, icra zamanı ilk növbədə əməkhaqqı və ona bərabər tutulan zəruri xərclərin ödənilməsinə üstünlük verilmiş, 15.629.728 manata qarşı 13.325.811 manat yerinə yetirilmişdir (85,3 faiz).

Rayon ərazisində 7 özəl bank filialı, 2 özəl bank şöbəsi, 1 kredit ittifaqı və 5 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir. 2015-ci ilin 9 ayı ərzində əhaliyə 20.452.316 manat kredit verilmişdir ki, bunun da 17.297.881 manatı qısamüddətli, 3.154.435 manatı isə uzunmüddətlidir. Əhalidən 1.510.014 manat və 2.249.004 ABŞ dolları əmanət cəlb olunmuşdur.

Ölkə Başçısının 3 mart 2013-cü il tarixli "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına uyğun olaraq sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində sistemli tədbirlər davam etdirilmiş, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla daha mütərəqqi normativ-hüquqi baza formalaşdırılmışdır. Sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, xarici ticarət əməliyyatlarının aparılması, daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində keçirilən islahatların davamı olaraq tikintiyə icazələrin verilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və müflisləşmə üzrə qanunvericiliyə zəruri dəyişikliklər edilmişdir.

Dövlət Başçısı İlham Əliyev cənablarının Nazirlər Kabinetinin son iclasında sahibkarların hüquqlarının qorunması, onlara qarşı əsassız iddiaların aradan qaldırılması zərurəti ilə bağlı söyləmişdir: "Sahibkarlara problemlər yaradır və onlardan əsassız yerə pul tələb edirlər. Sahibkar heç kimə borclu deyil, ancaq dövlət vergisini verməlidir, vəssalam. Sahibkarları boğurlar, soyurlar, incidirlər. Bu, dözülməz haldır". Respublika Prezidenti dediyi sözləri öz əməli işi ilə bir daha sübut etdi ki, belə hallar yolverilməzdir. Son günlər bir qrup vəzifəli şəxslərin ciddi cəzalandırılması dediklərimizə sübutdur. Bundan əlavə Respublika Prezidenti "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında 19 oktyabr 2015-ci il tarixdə Fərman imzalanmış, sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi Milli Məclisə göndərilmişdir. Qanun layihəsinə əsasən 2015-ci ilin noyabrın 1-dən etibarən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılır. Bütün bunlar Respublikamızda sahibkarlar üçün yaradılmış şəraitin və onlara göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Ümumilikdə özəl sektora maliyyə dəstəyinin daha da gücləndirilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 9 ayda 4.250 sahibkara 160 milyon manat güzəştli kredit verilmiş və bu kreditlər hesabına 9900-dək yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.

Qazax rayonunda Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 103 layihə üzrə sahibkarlara 1.141.700 manat kredit verilmişdir. Alınmış kredit hesabına 201 iş yeri açılmışdır.

Dövlət Sosial Müdafiəsi Fondunun Qazax rayon şöbəsi tərəfindən əhalinin pensiya və müavinətlərinin ödənilməsi üçün 2015-ci ilin 9 ayında ödəniş müəssisələrinə 20.599.000 manat vəsait köçürülmüşdür. Bu isə keçən ilin müvafiq dövrünə nisbətən 245.000 manat çoxdur. Şöbədə 2015-ci ilin 9 ayında sosial sığorta haqları üzrə yığım proqnozu 81,6 faiz yerinə yetirilmişdir. Bu göstərici büdcə təşkilatları üzrə yəni 82,4 faiz, qeyri büdcə təşkilatları və fiziki şəxslər üzrə isə 78,5 faiz yerinə yetirilmişdir. DSMF tərəfindən pensiya və müavinətlərin ödənilməsində gecikmə halları olmamışdır.

2015-ci ilin 9 ayında Qazax rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 3.622.723 manat aylıq müavinət və birdəfəlik müavinət təyin edilmiş və ödənilmişdir. Ötən 9 ay ərzində Mərkəz tərəfindən 1.022 ailəyə ünvanlı sosial yardım təyin edilmişdir. ƏƏSM Nazirliyi tərəfindən 1810 ailəyə 2.166.283 manat ÜSY ödənilmişdir.

Hesabat dövrü ərzində əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təmin olunması sahəsində də müəyyən işlər görülmüşdür.

2015-ci ilin 9 ayında Qazax Elektrik şəbəkəsi tərəfindən 10 kv hava xəttində 7,77 km, 0,4 kv hava xəttində 3,59 km uzunluğunda cari təmir işləri aparılmış, 208 ədəd yararsız dayaqlar yenisi ilə əvəz edilmiş və 38 ədəd transformator cari təmir olunaraq sxemaya qoşulmuşdur. Əhali tərəfindən 194 yeni tikilmiş evlərə sayğaclar quraşdırılmış və xətlər çəkilərək gərginlik verilmişdir.

Hal-hazırda Qazax şəhərində, Birinci Şıxlı və Xanlıqlar kəndlərində istismar vaxtını keçmiş, dəfələrlə təmir olunmuş transformatorların əvəzinə 21 ədəd yeni müasir tipli qapalı TM-ri ayrılmışdır. Həmin transformatorlardan 15 ədədi yerində quraşdırılmış, onlardan qidalanacaq 0,4 kv-luq xətlərdə 15 km uzunluğunda Sipləşmə (Kabelləşmə) işləri aparılmış, 390 ədəd yeni metal dayaqlar quraşdırılmış, 737 evə giriş xətləri verilmiş və müasir tipli sayğaclar üçün qutular quraşdırılmışdır.

Ötən dövrdə satılan enerjinin dəyəri 3.634.000 manat, toplanan vəsait isə 3.421.700 manat olmuşdur. Ümumi yığım 94,2 faiz, o cümlədən yerli əhali üzrə 98,2 faiz yerinə yetirilmişdir.

Bildiyiniz kimi Qazax rayonunun bütün yaşayış məntəqələri təbii qazla təmin olunmuşdur. Rayon Qaz İstismar Sahəsi tərəfindən 9 ayda əhali abonentlərə satılmış qazın dəyəri 2.652.784 manat olmuş, 2.501.294 manat (94,3 %) vəsait yığılmışdır. 9 ay ərzində 158 nəfər yeni abonent təbii qazla təmin olunmuşdur.

Qazax Telekommunikasiya Qovşağı cari ilin 9 ayında planı 100 faiz yerinə yetirmiş, qovşağın inzibati binasında Cənubi Koreya respublikası ilə birgə layihə çərçivəsində elektron tədris mərkəzi tikilmiş, kompyuter və avadanlıqlarla təchiz olunaraq istifadəyə verilmişdir.

Hesabat dövründə Qazax Poçt filialı tərəfindən əhalidən enerji, qaz, su və telefon pulları qəbul edilərək aidiyyəti təşkilatların bank hesablarına köçürülmüş, plan tapşırıqları 100 faiz yerinə yetirilmişdir. Filial tərəfindən 2.331 ədəd bağlama qəbul edilmiş və 565 ədəd bağlama müxtəlif ünvanlara göndərilmişdir.

Qazax-Avtovağzal ATSC-i hesabat dövründə plana 102 faiz əməl edərək 245.000 sərnişinə xidmət göstərmişdir.

Qazax Su Kanal idarəsi tərəfindən 2015-ci ilin 9 ayında 5.927 abonentə xidmət göstərilmiş və 197.998 manat vəsait toplanmışdır. Bu isə satışın 99,7 faizini təşkil edir. Təşkilat tərəfindən 4 ədəd subartezian nasosu, 7 ədəd su mühərriki əsaslı təmir olunmuş, 4 ədəd su nasosu və 2 ədəd subartezian nasosu yenisi ilə əvəz olunmuşdur.

Qazax Mənzil İstismar Sahəsi balansında olan kommunal mənzillərin dam örtüklərində əsaslı təmir işlərinə başlamış, bir və iki mərtəbəli 11 binada yerləşən 45 mənzilin dam örtüyündə 3.284 m2 metal keramit, binaların frontonuna 537 m2 lambir vurmuş, 19 yaşayış binasının dam örtüyündə cari təmir işləri aparmışdır. 9 ay ərzində vətəndaşlardan 102,4 faiz mənzil xidmət haqqı toplamışdır.

Qazax şəhərinin prospekt və küçələrində ümumilikdə yaşayış və qeyri-yaşayış binalarının 5.247 m2 dam örtükləri dəyişdirilmişdir.

2015-ci ilin 9 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələri tərəfindən də bir sıra işlər görülmüşdür.

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, 6 orta ümumtəhsil, 7 ibtidai məktəbdə 11.439 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1.743 nəfər müəllim məşğul olur.

Təhsilin informasiyalaşdırması sahəsində Dövlət Proqramının icrası nəticəsində hazırda 20 şagirdə 1 kompüter düşür. Rayonda olan 47 məktəbdən 26-sı internet şəbəkəsinə qoşulmuşdur.

Ölkə Prezidentinin tapşırığına əsasən həyata keçirilən "Ölkəmizi tanıyaq" tur-aksiyada rayonumuzun məktəblərindən şagirdlər iştirak etmiş, növbəti keçiriləcək turda 35 nəfər seçilmiş şagird iştirak edəcəkdir. (Qeyd: həmin şagirdlər üzərində Qazax yazılmış köynəklər və xüsusi emblemlərlə təmin olunsun).

2015-ci ilin yanvar ayında olimpiadanın ikinci rayon turunda 8 fənn üzrə 130 nəfər şagird iştirak etmişdir. Onlardan birinci yer tutmuş 2 nəfər şagird aprel ayında Bakı şəhərində keçirilən respublika turunda iştirak etmişdir. Bu şagirdlərdən şəhər 2 saylı tam orta məktəbin X sinif şagirdi İlham Mirzəyev fizika fənni üzrə III yeri tutmuşdur. Canalı kənd tam orta məktəbin X sinif şagirdi Səbinə İsmayılova 47-ci Beynəlxalq Kimya Olimpiadasında bütün mərhələlərdən keçərək Milli komandaya üzv seçilmiş və Bakı şəhərinə dəvət edilmişdir.

Buraxılış imtahanlarında XI siniflər üzrə 829 nəfərdən 198 nəfər, xarici dildən 182 nəfər, ana dilindən 178 nəfər "2" qiyməti almışdır. "4" və "5" qiymət alanların sayı isə 419 nəfər olmuşdur. İmtahan nəticəsinə görə müvəffəqiyyət 64 faiz, keyfiyyət 30 faiz olmuşdur.

IX siniflər üzrə riyaziyyatdan 1006 nəfərdən 320 nəfər, ana dilindən 276 nəfər "2" qiymət almışdır, "4" və "5" qiymət alanların sayı 232 nəfərdir. Müvəffəqiyyət 62 faiz, keyfiyyət 23,5 faiz olmuşdur.

İmtahanlarda şəhər 1, 2, 3, 5 saylı, məktəb-lisey, Yuxarı Əskipara, Cəfərli, Kommuna, Barxudarlı kənd ümumi orta məktəblərin məzunlarının göstəriciləri yüksək olmuşdur.

Rayonun Daş Salahlı 1, 2 saylı, Quşçu Ayrım, Xanbağı, Aslanbəyli, Kosalar, Yuxarı Salahlı, Orta Salahlı, Birinci və İkinci Şıxlı kənd tam orta məktəblərinin müvəffəqiyyət faizi rayon göstəricilərindən aşağı olmuşdur.

Rayon Mədəniyyət və Turizm şöbəsi 2015-ci ilin 9 ayında rayonda bayram konsertləri, şənliklər keçirmiş, əlamətdar günlər münasibətilə 44 mədəni-kütləvi tədbirlər təşkil etmişdir.

I Avropa Oyunlarının Qədim "Atəşgah" məbədində alovlandırılan məşəli Naxçıvandan başlayaraq respublikamızın 30 rayonundan keçərək mayın 18-də Qazax rayonuna gətirilmiş və şəhərin Heydər Əliyev prospekti boyunca minlərlə rayon sakininin alqış sədaları altında Azərbaycan xalqının ümummili lideri, ulu öndər Heydər Əliyevin adını daşıyan parkda məşəlin təntənəli alovlandırma mərasimi keçirilmişdir.

Hesabat dövründə rayonun səhiyyə müəssisələrində ambulator gəlişlərin sayı 120.673 nəfər olmuş, 3.701 nəfər isə flüoqrafik və rentgen müayinəsindən keçirilmişdir. 9 ay ərzində 187 nəfər şəkərli diabet, 124 nəfər vərəm, 67 nəfər onkoloji xəstə aşkar edilərək dispanser qeydiyyata götürülmüşdür.

Dövlət Başçısı İlham Əliyev cənablarının tapşırığına əsasən ölkəmizdə əhalinin tibbi müayinədən keçirilməsi aksiyası Qazax rayonunda da uğurla aparılmışdır. Müayinə nəticəsində 3.269 nəfərə ambulator, 427 nəfərə stasionar müalicə kursu təyin olunmuş, 59 nəfər isə Bakı şəhərinə müalicəyə göndərilmişdir.

Bu ilin may ayında Səhiyyə Nazirliyinin tövsiyəsi əsasında qanvermə aksiyası keçirilmiş, 70 litr qan tədarük olunaraq Mərkəzi Qan Bankına göndərilmişdir.

Rayon Gənclər və İdman idarəsi tərəfindən 2015-ci ilin 9 ayında gənclərlə iş sahəsi üzrə 14, bədən tərbiyəsi və idman sahəsi üzrə 20 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 3.442 nəfər yeniyetmə və gənc iştirak etmişdir. Hesabat dövründə beynəlxalq yarışlarda 15, respublika yarışlarında 50 nəfər idmançımız mükafata layiq yerlər tutmuşdur.

Hesabat dövründə rayon üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi 15.800.000 manat, ümumi məhsul buraxılışının həcmi 103.450.000 manat olmuşdur ki, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur. Sənaye məhsulunun həcmi 9.475.000 manat, ötən illə müqayisədə 1,3 faiz çox, kənd təsərrüfatı məhsullarının həcmi isə 45.582.000 manat, keçən ilə nisbətən 4,3 faiz çox olmuşdur. Adambaşına düşən ümumi məhsulun həcmi 1.112 manat, orta aylıq əməkhaqqı 265 manat olmuşdur.

(Davamı səh.3-də)

2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərovun

H E S A B A T M Ə R U Z Ə S İ

(Əvvəli səh.2-də)

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilə əlaqədar Qazax rayonunda davamlı surətdə yeni iş yerləri açılır. Ötən 9 ay ərzində 15 yeni müəssisə yaradılmış, 369-u daimi olmaqla 619 yeni iş yeri açılmışdır. 2015-ci ilin 9 ayı ərzində Məşğulluq Mərkəzinə 17 dövlət və 12 qeyri-dövlət müəssisələrindən 215 boş iş yeri təqdim edilmiş, müraciət etmiş 364 nəfər vətəndaşdan 224 nəfəri iş axtaran kimi qeydiyyata alınmış, 123 nəfər münasib işlə təmin olunmuşdur.

Rayonda "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa, quruculuq işləri əvvəlki illərdə olduğu kimi 2015-ci ilin 9 ayında da uğurla davam etdirilmişdir.

Belə ki, Azadlıq küçəsində 1300 m²-ə yaxın, Heydər Əliyev prospektində isə 1250 m² tamet plitələr və 1200 p/m səki daşları qoyularaq 600 m²-dən çox qazon və güllüklər yaradılmışdır. Bakı-Tbilisi magistral avtomobil yolunun kənarında yerləşən 5 mərtəbəli yaşayış binasının fasad hissəsinə vurulmuş 1480 m² penoplast üzlüklər sökülərək tikinti normalarına cavab verən materiallarla suvanmış və rənglənərək sakinlərin istifadəsinə verilmişdir. Şəhər ərazisində 9400 m² divar və dam örtükləri, 420 m² (84 ədəd) dəmir darvazalar, 7730 p/m beton bardürlər rənglənmişdir.

Heydər Əliyev prospekti, Azadlıq, F.Şamoyev, Bakı, Ə.Şıxlinski, M.P.Vaqif, S.Vurğun, Ə.Seyidov, M.Carçıyev, Ə.Dilbazi küçələrində və N.Nərimanov yaşayış massivində 6800 m2 asfalt örtüyü təmir edilmişdir. Bu istiqamətdə təmir-tikinti işləri davam etdirilir.

İllik gücü 1 milyon ton, ərazisi 56 hektar olan Qazax Sement zavodunun birinci hissəsində tikinti işləri başa çatdırılmış, II hissədə klinker istehsalı üzrə tikinti işləri davam etdirilir.

Qazax Konserv zavoduna 2014-cü ildə tikintisi başlanılmış yeni kartof anbarında işlər tamamlanmışdır. Hər biri 480 m2 olmaqla 4 anbar və 504 m2-lik beşinci anbar sahələri uyğun olaraq avtomatik idarə olunan soyutma, havalandırma və isitmə sistemləri ilə təchiz edilmişdir. Son texnologiyalar əsasında tikilib istifadəyə hazır vəziyyətə gətirilmiş bu anbar 5500 ton təzə kartofun müasir üsullarla öz keyfiyyətinin qorunaraq saxlanmasına imkan verir.

Dövlət Proqramına uyğun olaraq Qazax şəhərində tikintisi nəzərdə tutulmuş 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi üçün layihə-smeta sənədləri hazırlanmış və baxılmaq üçün Fövqəladə Hallar Nazirliyinin Ekspertiza şöbəsinə göndərilmişdir.

Daxili imkanlar hesabına 1986-cı ildən Qazax Tarix Diyarşünaslıq muzeyinin istifadəsinə verilmiş binası sökülmüş və yerində müasir tələblərə cavab verən yeni binanın və Qazax Musiqi məktəbi binasının tikintisinə başlanılmışdır.

Azərbaycan Kənd İnvestisiya layihəsi çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin "Regionların İnkişaf Proqramı"na əsasən Qazaxbəyli kəndində kənd qəbirstanlığında 8x4 ölçüdə talvarın quraşdırılması, 680 m uzunluğunda yeni hasarın çəkilməsi, 1 ədəd barmaqlıqdan darvazanın quraşdırılması işləri başa çatmışdır. Hazırda Qaymaqlı kəndində kənd qəbirstanlığında 8x4 ölçüdə talvarın quraşdırılması, 1000 m uzunluğunda yeni hasarın çəkilməsi, 1 ədəd barmaqlıqdan darvazanın quraşdırılması, yeni bulağın çəkilməsi, Daş Salahlı kəndində 4500 m uzunluğunda yeni su xəttinin çəkilməsi, 8 ədəd bulağın tikintisi işlərinə başlanılmış və işlər davam etdirilir.

Bərpa Agentliyi tərəfindən Bala Cəfərli və Məzəm kəndlərində dinc əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə 428 p/m istinad divarları inşa olunur. Yapon Səfirliyinin dəstəyi ilə Daş Salahlı həkim məntəqəsinin tikintisinə başlanılmış, hazırda tikinti işləri davam edir.

Qazax şəhərinin prospekt və küçələrində yeni işıqlandırma sistemlərinin quraşdırılması işləri davam etdirilir.

Respublika Prezidentinin Sərəncamına uyğun 2015-ci ildə qazıntısı nəzərdə tutulan 9 ədəd subartezian quyularından üçünün qazıntısı başa çatdırılmışdır. Bu istiqamətdə işlər davam etdirilir.

Rayonun kənd yaşayış məntəqələrində 40 km-dən çox kənddaxili yollara qumçınqıl döşənmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı sərəncamına uyğun olaraq köhnə mərkəzi xəstəxananın yerində yeni 145 çarpaylıq Mərkəzi Xəstəxana Kompleksinin tikintisinə başlanılmışdır. Müvəqqəti olaraq işlər dayandırılmışdır. Yaxın zamanlarda işlərə başlanılacaqdır.

Ölkə Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində 304 məcburi köçkün ailəsinə bütün infrastrukturlarla birlikdə yeni yaşayış binalarının tikintisi üçün 10 hektar torpaq sahəsi ayrılmışdır. Hazırda yeni yaşayış məntəqəsində tikinti işləri sürətlə davam etdirilir. Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulur. Bundan əlavə Qızıl Hacılı kənd sakinləri üçün Nazirlər Kabinetinin 3 mart 2015-ci il tarixli 77s saylı Sərəncamı ilə 19,4 hektar torpaq sahəsinin təyinatı dəyişdirilmiş, 78 ailəyə yaşayış evlərinin bütün ifrastrukturlarla tikintisi məqsədilə sənədləşmə işləri aparılır. Bundan əlavə Qazax-Kosalar avtomobil yolunun tikinti işlərinə başlanılması nəzərdə tutulmuşdur.

2015-ci ilin 9 ayı ərzində rayonda ağac əkini davam etdirilmiş, 142.000 ədəd ağac əkilmiş, ondan 16.000 ədədi Bakı-Qırmızı Körpü magistral avtomobil yolunun Qazax rayonu ərazisindən keçən hissəsində, 35.000 ədəd gül kolları gətirilərək parklar, xiyabanlar və yol kənarlarına əkilmişdir.

Hesabat dövründə rayonumuzda kənd təsərrüfatı məhsullarının artırılması məqsədilə bir sıra səmərəli işlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 fevral 2007-ci il tarixli 32 nömrəli və sonrakı Qərarlarının icrası ilə əlaqədar kənd təsərrüfatı məhsulları istehsalçılarına istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsi vəsaiti hesabına 12.738 hektar əkin sahəsi üçün 636.905 manat yardım hesablanaraq plastik kartlara köçürülmüşdür.

Rayonda mövcud olan 28 ədəd taxılyığan kombaynlar və digər texnikalar biçinə tam cəlb edilərək 2015-ci ilin məhsulu üçün payızda və yazda əkilmiş 6.067 hektar sahədə yetişdirilmiş taxıl məhsulu qısa müddətdə biçilərək 18.217 ton məhsul istehsal edilmişdir. Bu il keçən ilə nisbətən hektardan məhsuldarlıq 4,6 sentner artırılaraq 30,2 sentnerə çatdırılmışdır. Bu ilin məhsulu üçün 687 ha yonca, 327 ha kartof, 295 ha qarğıdalı, 689 ha tərəvəz, 516 ha yazlıq dənlilər, 48 ha texniki bitkilər və 30 ha bostan əkilmişdir. Hazırda məhsul yığımı davam edir. Kənd təsərrüfatı bitkilərindən normal məhsul alınmasına təsir edən əsas amillərdən biri bitkilərin vaxtında suvarma suyu ilə təmin edilməsidir. Cari ilin 9 ayı ərzində istehsalçılara 58,2 milyon m3 su əvəzinə 41,8 m3 su verilərək tələbat tam ödənilməmişdir. Suvarma sularından səmərəli istifadə edilməsi üçün keçən dövr ərzində plana uyğun olaraq arxlarda 591 min m3 lildən təmizləmə işləri aparılmışdır. Bundan 203 min m3 Qazax Melioserviz İdarəsi tərəfindən aparılmışdır.

Hesabat dövrü ərzində süni yolla mayalandırılmış heyvanlardan 285 baş bala alınmışdır. Bununla yanaşı heyvandarlıqda məhsuldar cins tərkibinin dəyişdirilməsi ilə əlaqədar rayona gətirilmiş 75 baş düyədən 75 baş bala alınmışdır. Heyvandarlıq sahəsində məhsul istehsalı dinamik surətdə artmaqdadır. Belə ki, keçən 9 ay ərzində ötən ilin eyni dövrünə nisbətən 710 ton artıq süd istehsal olunaraq 22.931 tona, 215 ton artıq ət istehsal olunaraq 4.161 tona və 241 min ədəd çox yumurta alınaraq 9.012.000 ədədə çatdırılmışdır.

Qazax rayonu Baytarlıq idarəsi tərəfindən 2015-ci ilin 9 ayı ərzində epizootik, müalicə-profilaktik tədbirlər planına uyğun olaraq aparılmışdır.

Rayon üzrə 1 dairə və 48 seçki məntəqəsi fəaliyyət göstərir. Onlardan 36 məntəqə 107 saylı Qazax seçki dairəsinə, 12-si isə 106 saylı Tovuz-Qazax-Ağstafa dairəsinə daxildir. Hər iki dairə üzrə saçicilərin sayı 56949 nəfərdir. 107 saylı seçki dairəsində və bütün məntəqələrdə təmir işləri aparılmış və məntəqələr lazımi avadanlıqlarla təmin olunmuş, 107 saylı Qazax seçki dairəsinin 10 məntəqəsində veb-kameralar quraşdırılmışdır.

2015-ci ilin 9 ayı ərzində Qazax RİH Başçısı tərəfindən 27 səyyar görüş-qəbullar keçirilmişdir. Həmin görüşlərdə iştirak edənlərin sayı 18.427 nəfər, müraciət edənlərin sayı 416 nəfər olmaqla 272 təklif irəli sürülmüşdür. Qaldırılan problemlər və təkliflərdən 123-ü icra edilmiş, 133 təklif ilə əlaqədar aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmış, 16 məsələ üzrə işlər davam edir.

Sizi əmin edirəm ki, biz bundan sonra da həm Dövlət Proqramında nəzərdə tutulmuş vəzifələrin, həm də cari tapşırıqların həllində uğurla çalışacaq, ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurlara öz töhfəmizi verəcəyik.

18 OKTYABR DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜDÜR

RAYONUMUZDA AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ QEYD OLUNMUŞDUR

Azərbaycanın Dövlət Müstəqilliyinin bərpasının 24-cü ildönümü münasibətilə rayonumuzda tədbir keçirilmişdir. Qazax rayon İcra Hakimiyyətində keçirilən tədbirdə idarə və müəssisə rəhbərləri, ictimaiyyətin nümayəndələri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev tədbiri giriş sözü ilə açaraq Dövlət Müstəqilliyinin bərpasının 24-cü ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir. Qeyd etmişdir ki, məhz ulu öndərin parlaq ideyalarının həyata keçirilməsi nəticəsində bu gün Azərbaycan dinamik iqtisadi inkişafını və etibarlı siyasi sabitliyini təmin etmiş müstəqil bir dövlətdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan milli dövlət quruculuğu siyasəti bu gün onun layiqli siyasi varisi Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi altında hazırda Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə çox böyük tərəqqi əldə etmişdir. Hazırda dövlətimiz dünya birliyində özünə layiqli yer tutmuş, bölgədə geosiyasi mövqelərini möhkəmləndirərək beynəlxalq nüfuz qazanmışdır.

Rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova məruzə ilə çıxış edərək müstəqillik illərində qazanılan uğurlardan, əldə olunan nailiyyətlərdən danışmışdır.

Sonra YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov, Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, Mədəniyyət və Turizm şöbəsinin müdiri Valeh Vəliyev və başqaları tədbirdə çıxış edərək Azərbaycanın Dövlət Müstəqillyinin əldə olunması, qorunub saxlanılması, daha da möhkəmləndirilməsi ilə bağlı ölkəmizdə görülmüş işlərdən danışmış və öz ürək sözlərini bildirmişlər.

Sonda Qazax rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev tədbirə yekun vuraraq Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasının 24-cü ildönümü münasibətilə tədbir iştirakçılarını bir daha təbrik etmiş, hər birinə cansağlığı, dövlətimizin və xalqımızın xoşbəxt gələcəyi naminə səmərəli fəaliyyət arzulamışdır.

Nüşabə HÜSEYNOVA

ƏMƏK YARMARKASINA 218 BOŞ İŞ YERİ ÇIXARILMIŞDIR

Ölkə Prezidenti İlham Əliyevin tapşırığına əsasən əhalini işlə təmin etmək məqsədilə respublikada mütəmadi olaraq tədbirlər həyata keçirilir. Hər il olduğu kimi bu il də bütün bölgələrdə əmək yarmarkalarının keçirilməsi davam etdirilmişdir.

Belə əmək yarmarkalarından biri bu günlərdə rayon İcra Hakimiyyəti başçısının 09 sentyabr 2015-ci il tarixli 20/72 nömrəli Sərəncamı ilə təşkil olunmuşdur. Rayonumuzda məşğulluq səviyyəsinin yüksəldilməsi və işsizliyin azaldılması məqsədilə ilə keçirilən əmək yarmarkaları demək olar ki, artıq ənənə halını almışdır. Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin nəzdində Dövlət Məşğulluq Xidmətinin Qazax rayon Məşğulluq Mərkəzi tərəfindən keçirilən yarmarkaya müvafiq boş iş yerləri çıxarılmışdır. Mədəniyyət evində keçirilən yarmarkada İcra Hakimiyyətinin məsul işçiləri, idarə, müəssisə rəhbərləri iştirak etmişdir.

Əmək yarmarkasına rayon ərazisində fəaliyyət göstərən 30 idarə və müəssisədən 218 boş iş yeri çıxarılmışdır. Təşkilatlardan 17-i dövlət, 9-u qeyri-dövlət, 4-ü isə fiziki şəxsdir. 17 dövlət təşkilatı əmək yarmarkasına 151, 9 qeyri-dövlət təşkilatı 49, 4 fiziki şəxs isə 18 boş iş yeri təqdim etmişdir.

Mərkəzi xəstəxana, Müalicə Diaqnostika Mərkəzi, Konserv zavodu, Gigiyena və Epidemiologiya Mərkəzi, Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialı, Mədəniyyət və Turizm şöbəsi, Su-kanal idarəsi, Qaz İstismar Sahəsi, Naxış xalçaçılıq müəssisəsi, Qazax Magistral Qaz Kəmərləri sahəsi, Akkord Sement zavodu, Kommunal Müəssisələr Kombinatı, 27 saylı Yol İstismar İdarəsi, Aslanbəyli kənd icra nümayəndəliyi, "Avey" Dövlət Tarix Mədəniyyət Qoruğu və başqa idarə və təşkilatlar əmək yarmarkasında iştirak etmişdir

Əmək yarmarkasına çıxarılan boş iş yerlərinin əmək haqqısının minimum həddi 125.00 manat, maksimum həddi isə 510.00 manat olmuşdur. İşə düzəlmək üçün yarmarkaya 130 nəfər müraciət etmişdir ki, onların da 55 nəfərinə işə göndəriş verilmişdir. Onlardan 41 nəfəri işlə təmin olunmuşdur. 16 nəfəri isə "Saloğlu" fərdi firmada mebel quraşdırıcısı üzrə peşə hazırlığı kursuna cəlb edilmişdir.

Həmçinin mərkəzdə qalan digər boş iş yerləri mərkəzə müraciət edən işaxtaran vətəndaşlara təklif ediləcəkdir.

Nüşabə HÜSEYNOVA

"Azərbaycanın ilk hərbi naziri"

Mərkəzi Kitabxana Mədəniyyət Mərkəzinin kiçik akt zalında General Səməd bəy Mehmandarovun anadan olmasının 160 illiyinə həsr olunmuş "Azərbaycanın ilk hərbi naziri" adlı dəyirmi masa keçirmişdir.

Mədəniyyət və Turizm şöbəsinin müdiri Valeh Vəliyev tədbiri giriş sözü ilə açaraq qeyd etmişdir ki, Azərbaycanın şərəfli hərb salnaməsi, adı tarixə düşmüş görkəmli sərkərdələri olub. Onlardan biri də Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, görkəmli hərbi xadim, General Səməd bəy Mehmandarov olmuşdur. Onun Azərbaycanın milli ordu quruculuğunda, peşəkar zabit yetişdirilməsində əvəzsiz rolu olub.

Şəhər Multimedia kitabxana filialının multimedia resursları üzrə mütəxəssis Rufina Namazova General Səməd bəy Mehmandarovun həyat və fəaliyyətini əhatə edən məruzə ilə çıxış edərək Səməd bəy Mehmandarovun əvəzsiz hərbi xadim, qorxmaz və ədalətli cəsur komandan və vətənpərvər, qeyrətli azərbaycanlı olmasını qeyd etmişdir. "Nə xoşbəxt insanam ki, ixtiyar yaşımda millətimin ordusunu yaratmaq mənə nəsib oldu" - deməsini vurğulamışdır. MKS-nin direktoru Solmaz Babanlı çıxışında General Səməd bəy Mehmandarovun təcrübəli tam artilleriya generalı rütbəsi almış ilk azərbaycanlı zabit olduğunu, Vətənin müdafiəsi naminə qısa bir zamanda güclü bir nizami ordu yaratdığını qeyd etmişdir.

Metodika və biblioqrafiya şöbəsinin müdiri Fatma Hüseynova, MİHİ Qazax rayon Komitəsinin sədri İsgəndər Qurbanov, metodist Məfrubə Sadıqova tədbirdə çıxış edərək General Səməd bəy Mehmandarovun görkəmli sərkərdə kimi Azərbaycan tarixində şərəfli və layiqli yer tutduğunu bildirmişlər.

Tədbirin sonunda General Səməd bəy Mehmandarova həsr olunmuş "Sərdar" adlı filmə tamaşa edilmiş və "Azərbaycanın ilk hərbi naziri" adlı sərgiyə baxış keçirilmişdir.

2015-ci il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

S/№-si	Qəbul edən şəxs	Tutduğu vəzifə	Qəbul günləri	Qəbul vaxtı
1.	Əsgərov Ayaz Nəriman oğlu	rayon İcra Hakimiyyətinin Başçısı	Hər həftənin V günü	10^{00}-dan
2.	Nağdalıyev Fərman Məmməd oğlu	Rayon İcra Hakimiyyəti başçısının birinci müavini	Hər həftənin I günü	10^{00}-dan
3.	Musayev Tahir Xaliddin oğlu	rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri	Hər həftənin II günü	10^{00}-dan
4.	Həsənova Gulaya Ziyad qızı	Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri	Hər həftənin III günü	10^{00}-dan
5.	Abışov Gündüz Fəxrəddin oğlu Alıyev Məmməd Oruc oğlu Həsənov Mehdi Alı oğlu	Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Memarlıq və tikinti şöbəsinin müdiri	Hər həftənin IV günü	10^{00}-dan

Qeyd:

1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.

2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.

3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :

022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70

YAP sıralarına daxil olan gənclərə üzvlük vəsiqələri verilmişdir

Respublikamızın qərb bölgəsinin ən böyük sənaye müəssisələrindən biri olan Qazax Sement Zavodunun kollektivi məhsul istehsalının kəmiyyət, keyfiyyət və çeşidini ildən-ilə artırır. Bunun nəticəsidir ki, zavodun iqtisadi gücü qısa müddət ərzində əhəmiyyətli dərəcədə yüksəlib.

Zavod kollektivinin əksəriyyətini təşkil edən gənclər ölkəmizin ictimai-siyasi həyatında da fəallıq göstərir, bu sahədə öz bilik və bacarıqlarını əsirgəmirlər.

YAP Qazax Sement Zavodu ilk partiya təşkilatının keçirdiyi yığıncaqda zavodun direktoru Hikmət Qəribov çıxış edərək istehsal prosesindən, gənclərin bu sahədə fəaliyyətlərindən danışmaqla yanaşı zavod kollevtivinin ölkənin ictimai-siyasi işlərində də fəal iştirak etdiyini bildirmişdir.

Zavodun işlər idarəsinin rəisi Əlif Məmmədov, YAP rayon təşkilatının şura üzvü Polad Ağakişiyev, "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl tədbirdə çıxış edərək partiya sıralarına daxil olan gəncləri təbrik etmiş, onlara gələcək fəaliyyətlərində uğurlar arzulamışlar.

Tədbirin sonunda partiya sıralarına daxil olan gənclərə YAP-ın üzvlük vəsiqələri verilmişdir.

"GÖYƏZƏN"

TƏDBİR KEÇİRİLMİŞDİR

Qazax Sement Zavodunda Azərbaycanın Dövlət Müstəqilliyinin 24-cü ildönümü qeyd olunmuşdur. Bununla əlaqədar zavodun akt zalında tədbir keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ümummulli ilder Heydər Əliyevin zavodun ərazisində ucaldılmış büstünün önünə gələrək gül-çiçək dəstələri qoymuş, ulu öndərin əbədi xatirəsini böyük ehtiramla yad etmişlər.

Qazax Sement Zavodu ASC-nin direktoru Hikmət Qəribov tədbiri giriş sözü ilə açaraq Azərbaycanın Dövlət Müstəqilliyi günü münasibətilə zavodun kollektivini təbrik etmiş, onlara ən xoş arzularını bildirmişdir.

Zavodun işlər idarəsinin rəisi Əlif Məmmədov məruzə ilə çıxış edərək ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqilliyin əldə olunmasından, Prezident İlham Əliyevin apardığı düzgün daxili və xarici siyasət nəticəsində Azərbaycanın dünya dövlətləri sırasında öz layiqli yerini tutmasından danışmışdır.

Zavodun əməkdaşı Heyran Orucova, Daş Salahlı kənd 1 saylı tam orta məktəbin müəllimi Flora Əliyeva, "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl, zavodun texniki direktoru Yusif Ziya Bəkiroğlu tədbirdə çıxış edərək Azərbaycanın dövlət müstəqilliyinin əbədi və dönməz olduğunu qeyd etmişlər.

Tədbirin sonunda Azərbaycanın Dövlət Müstəqilliyinə həsr edilmiş film nümayiş olunmuşdur.

PAYIZA DÖNƏN ÖMÜR

VƏ YAXUD 55 YAŞIN ZİRVƏSİNDƏ

Yaşayırıq, ötən günə dünən deyirik, yaşadığımız günə bu gün. Gələcək günü isə sabah adlandırırıq. Dünənlə bu günü, bu günlə sabahı birləşdirən, bir-birinə bağlayan zamana, zamanlara isə ömür deyirik. Bəlkə də bütün bunları başqa cür də, başqa adla da adlandırmaq olar. Birinə itən, başqasına qalan, digərinə isə gələn də demək olar. Ancaq necə adlanmasından, necə qəbul edilməsindən asılı olmayaraq yaşanan anlar-dəqiqələr, saatlar, günlər, həftələr, aylar və ən nəhayət illər insan ömrünü tamamlayır. Zaman insan ömrünü nə qədər tamamlasa belə hər bir adamın, fərdin taleyində, arzularında bir yarımçıqlıq qalır. Elə bu yarımçıqlığa görə də insan bu həyatdan doymur. Və sonda ömür xatirəyə dönür, unudulmayan, insan ömründə izi qalan bir xatirəyə.

Ömür ötür, dünən, bu gün, sabahdı,
Dönüb baxsan ayaqüstə oyaqdı.
O günlərdən bu günlərə dayaqdı,
Qocaların əl ağacı xatirə.

Dünyada hər şey bölünübdü-yer, günəş, çay, ulduz, səma, il, ay, gün, qərinə, gecə, gündüz. Hər bölgünün də öz adı, öz anlamı, öz ifadə forması var. Hətta, illər də fəsillərə bölünüb-yaz, yay, payız və ən nəhayət qış. Əgər soruşan olsa ki, bu fəsillərdən hansı gözəldir? Yəqin ki, əksər insanlar cavab verərlər ki, yaz fəsli. Heç yayın adını çəkən olmaz. Payızı, qışı isə dilinə gətirən də tapılmaz. Görəsən insanlar nəyə görə payızdan, qışdan belə qaçır. Onu özlərinə yaxın qoymaq istəmirlər. Axı, payızın öz gözəlliyi, qışın isə öz mənası, çalarları var.

Mən bunların heç fərqinə belə varmamış, fəsillər arasında heç zaman ayrıseçkilik salmamışam. Ancaq nədənsə mən həmişə payızı sevmişəm. Sarısaç, buludgöz, kənarda dayanıb məlul-məlul üzümə baxan o gözəli sevmişəm.

Küləyi göndərib xəbərə,
Nə yaman qaçıbdı bənizi.
Kim nə deyir-desin, sevirəm,
Sarısaç, buludgöz, o qızı.
Payız...

Bəlkə də payıza olan sevgim mənim payızda doğulmağımla, bəlkə də təbiətən, qəlbən payıza yaxın olmağımla bağlıdır? Bilmirəm. Amma təkcə onu bilirəm ki, mənim üçün bütün fəsillərin gözəli, baş tacı payızdır. Və ömrümün payıza çatdığı bir zamanda bu fəsil mənim üçün daha da doğmadı, daha da gözəldi. Ona görə də mən ömür adlı evimin pəncərəsini payız səmtinə açmışam. Çünki...

Yamyaşıl sevgilər qaldı uzaqda,
Daha ayrılığın üzü bəridi.
Gecə pəncərəmi döyən budaqlar,
Soyuqdan üşüyən qız əlləridi.

... İlk dəfə əlimə qələm alıb şeir yazdığımı xatırlayıram. Onda mənim cəmi 10 yaşım var idi. O zaman gördüyüm, toxunduğum, ünsiyyətdə olduğum hər şey alabəzək idi. Yəni hər şeyin öz rəngi, öz cazibədarlığı var idi. Və mən də bu rənglər dünyasına qapılıb ürəyimdən keçənləri vərəqə köçürürdüm. Valideynlərim, məndən böyüklər mənim bu yazdıqlarıma şeir deyirdilər. Baxmayaraq ki, mən şeirin nə olduğunu hələ bilmirdim. Elə bilirdim ki, şeir yazmaq çox asan, çox gözəl və çox ürəkaçan bir işdir. Amma... Amma böyüyəndən, şeir nə olduğunu anlayandan sonra isə başa düşdüm ki, uşaqlıqda bir çox şeylər kimi şeir haqqında belə düşündüyüm üçün yanılmışam. Sən demə... Sən demə, şeir yazmaq əzab imiş, dəhşət imiş, içindən nəyinsə qopub qaranlıq dünyadan işıqlı dünyaya düşməsi imiş. Sən demə, şeir yazmaq ölüb yenidən dirilmək imiş. Sən demə, şeir yazmaq... Bu fikri sözün ən dəhşətli, ən gərgin, ən sevincli, ən qaynar zamanlarında, dərəcələrində demək, yazmaq olar. Sən demə, şeir yazmaq elə şeir yazmaq imiş.

15 yaşım olanda Qazaxda çap olunan "Qalibiyyət bayrağı" qəzetində ilk şeirim çıxmışdı. Sabir küçəsində yerləşən redaksiyada rəhmətlik şair Qara Qafqazlı qəzeti mənə verib təbrik edəndə ürəyim az qalırdı ki, sinəmdən çıxsın. Öz imzamı qəzetdə görəndə elə bildim ki, bütün dünya mənimdi. Amma sən demə, dünya heç də mənim deyilmiş. Dünya elə dünyada yaşayanlarınkı imiş. Və elə o vaxtdan da qələmlə söz arasında qaldı ömrüm. Elə o vaxtdan da gah ölüb, gah da dirildim.

Bu möcüzə, yoxsa sirrdi?
Ya həyat ver, ya da öldür.
Can verirəm neçə ildi,
Qələmlə söz arasında.

Bu ölümlə dirilməyin arasında, bu çarpışmanın ortasında mən yenidən doğuldum dünyaya. Yeni bir həyat, ömür tapdım-şair ömrü. Bu ömrün acısı şirinindən çox, əzabı xoş anlarından boldur. Bu ömrü yaşamaq əzabdı, ağrıdı, çətindən də çətindi. Çünki bir insan bir gündə neçə hala düşə bilər.

İllər ötüb keçdi. İmzam zaman ötdükcə tanınmağa başladı. Elə şeir yazmağıma görə də mən cəmi bir neçə ay müəllim işləyə bildim. Şair olduğuma görə irəli çəkib məni Ağdaş rayonunda çıxan "Əmək" qəzetinə müxbir təyin etdilər. 1984-cü ildə. Elə o vaxtdan da bir ağır yükün üstünə başqa bir ağır yük də gəldi-jurnalist yükü. Məsuliyyət daha da artdı, ağrılı, əzablı günlər, anlar daha da çoxaldı. Bir insan ömrünə ikinci bir yük də əlavə olundu. Və hər iki yük çiynimdə yaşamağa başladım. Bu şair ömrünün harasına getdimsə, haradan baxdımsa da sevincdən çox dərd göründü, kədər rast gəldi mənə. Bu kədərin, bu dərdin göylərində ələk kimi fırlandım.

Ələndim, fırlanır göydə ələyim,
Bilmədim nə idi arzum, diləyim?
Mənim dərddən başqa yoxdu heç nəyim,
Kim dərd istəyirsə, böl, çıxaq gedək.
Yox, ancaq getmədim.

Bir gecə yarısı əlimi Allaha açıb ulu Tanrıdan məni qəbul etməsini dilədim.

Asılmışam sarı simdən,
Söylə, kömək umum kimdən?
Keçir qanlı köynəyindən,
Dünya, məni qəbul elə.

Böyük vuruşmalardan, gərgin çarpışmalardan sonra dünya məni qəbul elədi. Tanrı öz doğma balası kimi ömür verdi mənə. Və mən yaşamağa başladım. Bu yaşamın içində zaman ötdü, illər keçdi. Övladlarım gəldi dünyaya - kitablarım çap olunmağa başladı. Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ müharibəsinə həsr olunmuş "Bu, əsl faciə idi", ulu öndər Heydər Əliyevin titanik həyat yolunun anlarından bəhs edən "Böyük ömrün Qazax salnaməsi", Azərbaycan-Gürcüstan xalqlarının dostluğundan danışan "Dostluq körpüsü", Səməd Vurğunun unudulmuş günlərinin qələmə alındığı "Deyilən söz yadigardır", "Sənli-sənsiz keçən günlər", "Dünya, məni qəbul elə", "Daha payızdandı", "Mənim səcdəgahım, qibləm Qazaxdı" adlı kitablarım nəşr olundu.

Beləcə mən iki insan ömrü yaşadım. Şair və jurnalist ömrü. Ona görə də həm şeir, həm də publisist kitablarım çap olundu. Şeirlə deyə bilmədiklərimi publisistikanın dili ilə qələmə aldım. Ümumiyyətlə, jurnalistika həyatda çox köməyimə çatıb. Söz meydanında döyüşdə sən demə, publisistikanın da böyük köməyi var imiş. Yoxsa şeirlə tək döyüşə bilməzdim.

Ömrün yarısı su, yarısı oddu,
Yarısı doğmadı, yarısı yaddı.
Yaşadım dünyada mən insan adlı,
Bir üzüm sevincdi, bir üzümsə qəm.

Bir az möhlət istəyirəm ömürdən.

Hər dəfə yazanda, Allahın izni ilə əlimə qələm alanda ömürdən möhlət istədim. Möhlət istədim ki, ürəyimdə olanları, məni düşündürən fikirləri, içimi yandıran duyğuları yazıb qurtara bilim. Və hər dəfə yazıb qurtaranda dərindən nəfəs alıb, gözlərimin yaşını silib rahatlaşanda yenidən narahatlığım başlayıb. Və bu narahatlıq məni düz 55 ildir ki, tərk eləmir. Belə görürəm ki, tərk eləyən də deyil. Çünki mən bu ömrü yaşamıram. Yaşadığım ömrün mayası halal zəhmət, kündəsi alın tərim, çörəyi ürəyimin qabarı olub. Bu ömrü mən qaranlıq gecələrimə işıq saçmaqla, zülməti gündüzə çevirməklə, kədərimə sevinc qatmaqla qazanmışam. Bu ömrü mən bəlkə də yaşaya-yaşaya ölmüşəm. Bəlkə də ölə-ölə dirilmişəm. Bilmirəm. Amma bircə onu bilirəm ki, mən bu gün sağam, yaşayıram.

Bilmirəm heç nəçiyəm,
Haqqın susmaz səsiyəm.
Mən sözün fəhləsiyəm,
Çörəyim daşdan çıxır.

1960-2015-ci il. Deməli, əlli beş il ötüb mənim dünyaya gəldiyim gündən. Əlli beş il. Əlli beş yaş deyəndə düzü mənə qəribə gəlir. Çünki mənə görə yaş məcazi bir məna daşıyır. İnsan özünü neçə yaşda hiss edirsə, deməli elə onun yaşı da bir o qədərdi. Daha ona hər hansı bir rəqəmi vermək, məncə düzgün deyil. Ancaq nə olsa da yaş yaşlığında qalır. Və mən əlli beş yaşıma gəlib çatmışam, ömrün ən böyük dayanacağına. İnsan bu yaşda, daha doğrusu bu dayanacaqda dərindən bir nəfəs alıb köks ötürərək istər-istəməz düşüncələrə dalır. Olub-keçənləri bir-bir xəyalından keçirir, yaşanmış günlər, şirinacı xatirələr kino lenti kimi adamın yaddaşından keçib gedir. Xatirələr doğma, kadrlar tanışdı. Doğma olmayan, tanış gəlməyən isə insanın özünün yaşadığı hisslər, duyğulardı. Bəzən adam dərindən düşünüb xatirələrə dalanda az qalır ki, bu dərin burulğanda boğulub batsın.

Əlli beş yaş. Yaxanı nə qədər kənara çəksən, özünü neçə yaşda hesab etsən də, istər-istəməz adam gözünün önünə payız fəslini gətirir-qızlı rəngli payızı. İnsanın içinə kədər qarışıq bir duman, çiskin çökür-payız çiskini kimi. Bədənində tüklərin qabarır-üşüyürmüş kimi. İçində kövrək hisslər baş qaldırır. Sanki uzaq bir adada tək qalmış bir adama bənzəyir insan. Yaşıl sevgilər gəlib keçir xəyalından, artıq əl çatmayan sevgilər.

Yamyaşıl sevgilər qaldı uzaqda,
Daha ayrılığın üzü bəridi.
Gecə pəncərəmi döyən budaqlar,
Soyuqdan üşüyən qız əlləridi.

Elə bu zaman payızın dəli küləyi adamı az qalır ki, yerindən oynada. Qaralan buludlar göz yaşı tökür. Bu an insan özüözünə sual verir: Görəsən mənim ömrümün payızı gəlibmi? Bəlkə heç bu payız mənim payızım deyil?

O qız öz eşqini, andı unutdu,
İndi mənə qalan quru umuddu.
Mənim payızımın gözü buluddu,
Gözəlim, bu payız mənimki deyil.

Arxamca baxmayır odlu baxışlar,
Ayaq izlərimi yuyur yağışlar.
Saralmış yarpaqlar deyir: "bağışla"
Gözəlim, bu payız mənimki deyil.

Ancaq yox. Bu payız əsl mənim payızımdı, ömrümün geriyə dönən zamanında. Alnıma qırış salıb, saçlarıma əl gəzdirib, ürəyimə bir qəhər qoyub, içimə dumana bənzəyən kədər çökdürüb. Ömrün əlli beş ili zirvəyə qalxan yolun başlanğıcıdırmı, ortası, yoxsa sonudurmu, bilmirəm. Amma bir şeyi yəqin bilirəm ki, tənha bir ağacın altında, uca bir yerdə dayanıb həm geriyə, həm də qabağa baxıram. Geriyə boylananda qaranlıqda parıldayan ulduzlar kimi xatirələr, xoş və acı günlər bərq vurur. Qabağa doğru baxanda isə getdikcə zülmətə qərq olan uçurum görünür. Getmək istəməsəm də getməlisən, ayaqların sözünə baxmır elə bil. Addımla, qardaşım, irəli get. Onsuz da hər bir insan üçün dünyanın sonu var.

55 yaş. Qarşıda hələ gediləsi çox uzun yollar, keçilən sədlər, aşılası dağlar, dərələr var. Əlli beş yaş uca bir dağın zirvəsidir. Ömrün cilalanaraq ən qiymətli bir daşqaşa döndüyü zamandı. Burulğanların, dumanlıqların aydınlaşdığı, safa çevrildiyi bir zamandı. Ona görə də indi mən zirvəyə qalxıb zirvədən baxıram dünyaya. Gəlimli-gedimli dünyaya.

Bir şair yaşadı, yandı içimdə,
Ayrı düşüb qaldım ömrün köçündən.
Mən kotan çəkirəm doğulan gündən,
Torpağın əkinçi zirvəsindəyəm.

Nələr bu həyatda gəldi başıma,
Yandım istisinə, döndüm qışına.
Çatmısan ay Elçin, yarı yaşına,
Ömrün 55-ci zirvəsindəyəm.

Sağlıq olsun. Sonrakı illərdə görüşərik.

Elçin İSMAYIL

2015-Cİ İLİN OKTYABRIN 12-DƏN 18-DƏK "AZƏRBAYCANDA YERLİ DEMOKRATİYA HƏFTƏSİ" ÇƏRÇİVƏSİNDƏ BƏLƏDİYYƏLƏRDƏ HƏYATA KEÇİRİLƏCƏK TƏDBİRLƏRƏ DAİR TÖVSİYƏLƏR

Həftə ərzində "Multikultural cəmiyyətdə həyat: hörmət, dialoq və qarşılıqlı fəaliyyət" adı altında aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- seçicilərin tapşırıqlarının yerinə yetirilməsi, vətəndaş-bələdiyyə, bələdiyyə-vətəndaş əlaqələrinin möhkəmləndirilməsi, vətəndaşların bələdiyyənin fəaliyyətində iştirakının təmin edilməsi, onların müraciətlərinə baxılması, 2014-cü ildə görülmüş işlər, o cümlədən "Bir bələdiyyə-azı bir layihə" təşəbbüsü çərçivəsində həyata keçirilmiş layihələr barədə hesabatların verilməsi, 2015-ci ilin bələdiyyə büdcəsinin və həyata keçirilməsi nəzərdə tutulmuş layihələrin müzakirəsi üçün vətəndaşlarla açıq və qapalı yerlərdə görüşlərin keçirilməsi;
- bələdiyyədə "Açıq qapı" günlərinin elan edilməsi və bələdiyyə üzvləri tərəfindən vətəndaşların qəbulunun təşkili;
- vətəndaşlarla operativ əlaqələrin təmin edilməsi məqsədilə "Qaynar xətt" telefon nömrəsinin elan edilməsi, "Qaynar xətt" vasitəsilə qaldırılan məsələlərin qeydə alınması və cavablandırılması;
- əhalinin sıx toplaşdığı yerlərdə "Bələdiyyə poçt qutuları"nın quraşdırılması;
- küçələrdə və bələdiyyənin yerləşdiyi binada "Yerli demokratiya həftəsində fəal iştirak edək", "Bələdiyyə-vətəndaş, vətəndaş-bələdiyyə əlaqələrini möhkəmləndirək", "Vətəndaşların yerli özünüidarəetmədə iştirakını təmin edək" şüarları yazılmış plakat və transparantların asılması;
- bələdiyyə tərəfindən məqsədəuyğun hesab edilən digər tədbirlərin həyata keçirilməsi;
- həftə ərzində keçirilən tədbirlərin yerli KİV-lərdə işıqlandırılması;
- həftənin yekunları, keçirilmiş tədbirlər barədə əlavə olunan forma üzrə məlumatların 3 gün müddətində Azərbaycan şəhər, qəsəbə, kənd bələdiyyələrinin Milli Assosiasiyalarına təqdim edilməsi.

Azərbaycan şəhər, qəsəbə, kənd bələdiyyələrinin Milli Assosiasiyaları

"SƏYALI XANIM BULAĞI"

Xanlıqlar-qədim və həmişəyaşar şairlər vətəni, Qazax mahalının cənnət-məkan guşəsi, zəhmətkeş, torpağa bağlı insanlar, tarixi abidələr məskənidir. Didivan bürcü, Tacıbəy, Çoban Vəli ocağı və s. abidələrin sirri-sehiri bu kənddədir. Əlverişli coğrafi mövqeyə malik olan obamızı dağlar, meşələr, meyvə bağları, taxıl zəmiləri, yaşıllıqlar əhatə edir. "Ağstafaçay su anbarı" bu torpağı daha yaraşıqlı edibdir.

Bu yazıda oxuculara söhbət açacağım həqiqət isə "Səyalı xanım bulağı" haqqındadır.

Qeyd edim ki, bu yerlərin içməli suya olan tələbatını əsasən bulaqlar təşkil edir. "Vəlixan", "Kar qaya" bulaqları öz mənbələrini dağ və meşələrdən götürür. 10-12 kilometrlik iki su kəməri ilə kənddəki su anbarlarına vurulur. Öz mənbəyini "Cücülü" bulağından götürən, uzaq keçmişdə saxsı borular vasitəsilə çəkilmiş Xanlıqlar kəndinin köhnə yurd yerindən xeyli aralı, "Dəmirli" çalının aşağı yamaclarında istifadəsiz axan bir bulaq da qaynayırmış...

Keçən əsrdə yaşamış öz isməti, davranışı, mərdliyi, kişi xasiyyəti ilə ad çıxarmış Səyalı xanım bulağı dünyadan çox cavan köçmüş həyat yoldaşının şərəfinə öz şəxsi vəsaiti hesabına elata yaxın yerə çəkdirmişdir. Elə o vaxtdan da "Həmişə çalı"nın ətəklərindəki "Biyannı" dərəsində su anbarına vurulmuş bulağın adı el arasında "Səyalı xanım bulağı" adlanır.

Səyalı xanım iki övlad böyütmüş, ərinin məhəbbətinə sədaqətli olmuş, bulağı çəkdirməklə çox böyük savab iş görmüşdür.

Vaxtı ilə təpələrin, dağların başına dolanan dolayı, qıyqacı cığırlarla qatarlaşan qız-gəlinlərimiz çiyinlərində səhəng, güyüm "Səyalı xanım bulağı"ndan su daşıyardılar. Könlü sərin, içməli su istəyənlərin güzarı həmişə bu bulağa düşərdi. Bəlkə elə ona görədir ki, bu torpağın insanları bulaq kimi saf əqidəli, xoş məramlı olmuşdur.

1960-65-ci illərdə qədim Xanlıqlar kəndi dəmyə torpaqlardan Faxralı arxının alt tərəfinə, suvarılan sahəyə köçürüldü və "Səyalı xanım bulağı"ndan aralı düşdü.

1941-45-ci il Böyük Vətən Müharibəsində Xanlıqlar kəndinin yüzə qədər gənci şəhid oldu. Belə gənclərdən biri də itkin düşmüş Firudin Qələndər oğlu İbrahimovdur. Uzun illər ata-anası onun yolunu gözləsə də (qara kağızına inanmadılar) Firudin müharibədən qayıtmadı. Ailədə qərara alındı ki, "Səyalı xanım bulağı" kəndin yaxınlığına çəkilsin. Bu xeyirxah işdə bütün kəndin iş qabiliyyətli sakinləri səfərbər olundu. Əsas işi isə Firudinin ailəsi gördü.

Ürəklərin məlhəmi olan "Səyalı xanım bulağı"nda Firudinin də adının əbədiləşdirilməsi bu igid oğlun həmyerlilərinin ürəyincədir. Bulaq el-obanın bu gün də xidmətindədir.

Kar qaya, Səyalı ellər bulağı,
Büllur sularında inci saflığı.
Armudlu, Dəmirli, Həmişə dağı,
Sənin vüqarındır varın, Xanlıqlar.

Hacı ZAMƏDDİN

Ayrı qalmağımıza sən səbəbkarsan

Bunu ağlının yaz bir küncünə,
Nə qədər düşsəm də borana-çənə.
İllər gəncliyimi aparsa yenə,
Ayrı qalmağımıza sən səbəbkarsan.

Hər fəsil ömrümü yelə sovurdun,
Ağrıyla-acıyla belə qovurdun.
Sevgi əzabının damğasın vurdun,
Ayrı qalmağımıza sən səbəbkarsan.

Tənhalıq qəlbini hələ çox sıxar,
Göz yaşın sel olub axar, hey axar.
Gözlərin arxamca boylanar-baxar,
Ayrı qalmağımıza sən səbəbkarsan.

Kədərim heç məndən keçmədi ki, yan,
Qəlbin için-için ağlasa da qan.
Sevgimiz yolunda qoymadımmı can,
Ayrı qalmağımıza sən səbəbkarsan.

Qazancın nə oldu, de görüm sonda?
Hər sözün çəkisi çox ağır tonda.
Beləcə məhv etdin ... demək ki, onda,
Ayrı qalmağımıza sən səbəbkarsan.

Bu sevgi payını puça döndərdin,
Sevgimlə sən məni qəbrə göndərdin.
Sökdün, parçaladın nə idi dərdin?
Ayrı qalmağımıza sən səbəbkarsan.

Bax belə məhv etdin bu sevgimizi,
Necə siləcəksən bu qədər izi?
İnana bilmirəm ayırdın bizi,
Ayrı qalmağımıza sən səbəbkarsan.

Məxluqə Teyfurqızı

"Yurduna vurğun şair" adlı ədəbi-bədii gecə keçirilmişdir

Mərkəzi Kitabxana Sisteminin oxu zalında Əməkdar İncəsənət xadimi, şair Həmid Abbasın anadan olmasının 80 illiyinə həsr olunmuş "Yurduna vurğun şair "adlı ədəbi-bədii gecə keçirilmişdir. Tədbirdə mədəniyyət işçiləri və fəal oxucular, məktəblilər iştirak etmişdir.

MKS-nin direktoru Solmaz Babanlı tədbiri giriş sözü ilə açaraq Həmid Abbasın Azərbaycan ədəbiyyatında öz dəsti-xətti, yeri olduğunu, Vətəninə, soykökünə bağlı vətəndaş, şair olduğunu qeyd etmişdir. Onun əsərlərinin oxucular tərəfindən sevilə- sevilə oxunduğunu, yüzlərlə şeirinə mahnılar bəstələndiyini iştirakçıların nəzərinə çatdırmışdır.

Metodika-biblioqrafiya şöbəsinin müdiri Fatma Hüseynova şair Həmid Abbasın həyat və yaradıcılığı haqqında geniş məruzə ilə çıxış edərək Həmid Abbasın nəcib, xeyirxah, qayğıkeş bir vətəndaş olduğunu, onun Vətənin tarixini, gözəlliklərini və qələbələrini vəsf edən, vətənin ağır günündə birgə olmağa çağırış ruhlu vətənpərvər şeirlər yazdığını vurğulamışdır.

Tədbirdə fəal oxucular - şəhər 1 saylı orta məktəbin VI sinif şagirdləri Sübhan Hacıyev şairin Səməd Vurğuna həsr etdiyi "Zirvədə" poemasından, Fərid Mikayılov "Azərbaycan", şəhər 4 saylı məktəbin X sinif şagirdi Gülbahar Mustafayeva "Dünya bizə tapşırılıb", "Bakıdan Qazağa" şeirlərini söyləmişlər.

Şəhər 2 saylı musiqi məktəbinin şagirdləri Nurlan İsmayılov "Cəlili", "Naxçıvani", Səxavət Xəlfəquliyev "Paşaköçdü", Amil Kərimov "Ruhani" havaları üstündə şairin sözlərinə yazılmış mahnılar oxumuşlar.

Tədbirin sonunda "Yurduna vurğun şair " adlı sərgiyə baxış keçirilmişdir.

Həcər HADIYEVA,
oxuculara xidmət şöbəsinin müdiri

HƏKİM

Qazax rayon Müalicə Diaqnostika Mərkəzinin göz həkimi Şəfa Əliyevaya ithaf olunur

Gülər üzün, saf niyyətin,
Qəlbimə zinətdi, həkim.
Çəkdiyin gərgin zəhmətin,
Ellərə hörmətdi, həkim.

Xəstələri yoxlamağın,
El qayğısı saxlamağın.
Şən gülüşün, şadlanmağın,
Xalq ilə ülfətdi, həkim.

Kim ucalar eldə səncə?
Sevindim səni görüncə.
Mədəniyyətə gəlincə,
Ən böyük şöhrətdi, həkim.

Birlikdədir elin gücü,
Başdan enməz birlik tacı.
Qardaş olum, sən ol bacı,
Ülvi bir istəkdi, həkim.

El-obadan güc alırsan,
Hər işdə zəfər çalırsan.
Sənətinlə ucalırsan,
Şərəfli vəhdətdi, həkim.

Qəlbin təmiz düz yol üstə,
Səndən şəfa dilər xəstə.
Sən Fazildən müjdə istə,
Bu da bir fürsətdi, həkim.

Fazil SADIQ

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB33010019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib. Fotolar: Salmanındır.